# Aydan Hüseynzadə Dünya Çempionatının ikincisidir

Qəzetimizdə xəbər verdiyimiz kimi sentyabrın 21-dən 28-dək Gürcüstan Respublikasının Batumi şəhərində şahmat məsələlərinin əyani həlli üzrə 37-ci Dünya Çempionatı keçirilmişdir. Çempionata dünyanın bir sıra ölkələrindən--Almaniya, Böyük Britaniya, Fransa, Yaponiya, İsveçrə, Braziliya, Polşa, Serbiya, İsrail, Rusiya, Ukrayna, Belarusiya, Azərbaycan, Gürcüstan və digər dövlətlərdən güclü idmançılar dəvət almışdılar. Rayonumuzdan ondördqat Respublika çempionu Araz Almməmmədov və Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin X sinif şagirdi, I dərəcəli şahmatçı Aydan Hüseynzadə Azərbaycan yığma komandasının tərkibinə daxil edilmişdi. Onu da qeyd edək ki, ölkəmizdən ilk dəfə idi Aydanın timsalında şahmatın adı çəkilən növü üzrə qadın şahmatçı çempionluq uğrunda mübarizəyə qoşulmuşdu.



Bir həftə davam edən yarış bizim üçün çox uğurlu oldu. Qadın şahmatçılar arasında keçirilən yarışda Rusiya şahmatçısı Anna Bilinkina 1-ci, yığmamızın tərkibində çıxış edən Qəbələ məktəblisi Aydan Hüseynzadə 2-ci, ondan xal yarım geri qalan gürcü əsilli Fransa şahmatçısı Nino Masuradze isə 3-cü yeri tutdular.

Gənc şahmatçımızı bu qələbə münasibətilə təbrik edir, ona gələcək yarışlarda daha böyük idman uğurları arzulayırıq.

**Şəkildə:** (soldan) Rusiyalı Beynəlxalq dərəcəli qroysmester A. Verşagin, Qəbələ idmançısı A. Hüseynzadə və Azərbaycan yığma komandasının baş məşqçisi, Beynəlxalq dərəcəli hakim İ. Əliyev.

**Miri RƏHİMOV.**

# *Əziz qəbələlilər!!!*

İSRA KURSLARI

*Kompüter bilikləri, ingilis və rus dilləri artıq texnologiya əsrinin vacib tələblərindən birinə çevrilmişdir. Gündən-günə inkişaf edən və mühüm turizm mərkəzlərindən birinə çevrilən rayonumuzdakı idarə və müəssisələrin də təbii olaraq xarici dil və kompüter bilən kadrlara ehtiyacı vardır.*

*İSRA KURSLARI-nda abituriyent hazırlığı ilə yanaşı, xarici dil və kompüter kurslarının fəaliyyət göstərməsi də məhz bu tələbin nəticəsidir.*

*Kurslar ən yeni metodikalardan istifadə etməklə xüsusi proqramlar və DVD materiallar əsasında keçirilir. Proqram seçilərkən dinləyicinin başlanğıc bilik səviyyəsi, uyğun vaxt və seçdiyi proqramı öyrənməkdə məqsədi nəzərə alınır.*

*Dərslər həftədə 3 gün keçirilir.*

*İngilis dili və rus dili üzrə danışıq kurslarımızda dərslər başlanğıc səviyyə üçün 1 saat, irəli səviyyələr üçün isə 1,5 saat həcmində keçirilməkdədir. Dərslər projektor vasitəsilə video dəstəkli olmaqla yanaşı 4 əsas bacarığın inkişaf etdirilməsi üçün nəzərdə tutulmuşdur.*

*Danışıq Dinləmə Oxuma Yazma*

*İSRA KURSLARI-nda ingilis dili Dünya Standartlarına (TEFL-Teaching English as a Foregn Language) uyğun olaraq 6 mərhələdə tədris olunur:*

| | |
|---|---|
| *Beginner* | *İntermediate* |
| *Elementary* | *Urrer-İntermediate* |
| *Pre-İntermediate* | *Advanced* |

*İngilis dili kurslarında təhsil almaqla siz, həmçinin, akademik və işgüzar ingilis dilinizi (Academic and Business English) inkişaf etdirə bilərsiniz. Bununla yanaşı, kursumuzda ayda 1 dəfə virtual imtahan və ayda 1 dəfə danışıq klubları (Conversation club) təşkil olunur.*

*2-ci səviyyədən sonra imtahanı keçənlərə sertifikat verilir.*

*İSRA KURSLARI-nda kompüter barəsində heç bir məlumatı olmayanlarla yanaşı, hər hansı bir sahədə ixtisaslaşmaq istəyənlər də iştirak edə bilərlər.*

*İSRA KURSLARI sizə aşağıdakı proqramları təklif edir:*

| | |
|---|---|
| *1) Əməliyyat sistemləri* | *-Microsoft Access* |
| *-MS Windows* | *-Microsoft Outlook* |
| *2) Office proqramları* | *3) Dizayn proqramları* |
| *-Microsoft Word* | *-Adobe Photoshop* |
| *-Microsoft Excel* | *-Corel Draw* |
| *-Microsoft Power Point* | *-Movie Maker* |

*Dərslər 1 saat həcmində keçirilir. Kursun sonunda imtahandan keçənlərə sertifikat verilir.*

***Qeyd:** kurslarda 10 yaşdan yuxarı hər kəs iştirak edə bilər.*

## Topaz Premyer Liqasının TƏQVİMİ

**2013-cü il**
**İkinci dövrə**
**X tur**

**19 oktyabr (şənbə)**

46. "Simurq" (Zaqatala) – "Xəzər Lənkəran" (Lənkəran).
47. "Neftçi" (Bakı) – "Rəvan" (Bakı).
48. "İnter" (Bakı) – "Qəbələ" (Qəbələ).

**20 oktyabr (bazar)**

49. "Sumqayıt" (Sumqayıt) – "Qarabağ" (Ağdam).
50. "Bakı" (Bakı) – AZAL (Bakı).

**XI tur**

**25 oktyabr (cümə)**

51. "Qəbələ" (Qəbələ) – "Sumqayıt" (Sumqayıt).
52. "Rəvan" (Bakı) – "Bakı" (Bakı).

**26 oktyabr (şənbə)**

53. AZAL (Bakı) – "İnter" (Bakı).

**27 oktyabr (bazar)**

54. "Xəzər Lənkəran" (Lənkəran) – "Qarabağ" (Ağdam).
55. "Simurq" (Zaqatala) – "Neftçi" (Bakı).

## Minnətdarlıq məktubu

Mənə bu məktubu yazmağa ailəmizin hədsiz sevinci səbəb oldu. Bütün ailəmiz adından Qəbələ Mərkəzi Xəstəxanası doğum şöbəsinin müdiri, həkim Zeynəb Qasımovaya minnətdarlığımızı çatdırmaq istərdim.

Həkim Zeynəb xanımın böyük zəhməti sayəsində bu günlərdə ailəmizə körpə sevinci bəxş edildi. Bu sevincin qazanılmasında əməyi olan xəstəxananın digər tibbi personalına da razılığımızı bildirirəm.

**Bayramkoxalı kəndi, Abbasovlar ailəsi adından**
**Elman ABBASOV.**

## ELAN

Qəbələ Rayon Aqrar İslahat komissiyası tərəfindən Mamaylı kənd sakini Muradxanov Qalib Abdı oğlunun adına verilmiş 1,47 hektar **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** (81A nömrəli, kodu 40604038) **itdiyi üçün** etibarsız sayılır.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
M. Ə. Rəhimov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.